**UOT:78.**

# YOZEF HAYDNIN YARADICILIĞININ ƏSAS CƏHƏTLƏRİ

***Məhərrəmova Səma Bəşir qızı***
***Gəncə Dövlət Universiteti***
***Semameherremova74@mail.ru***

**Xülasə:** *Vyana klassiklərinin bədii nailiyyətləri dünya musiqi sənətinin inkişafında çox yüksək tarixi əhəmiyyətə malikdir. Böyük Avstriya bəstəkarı Yosef Haydn Vyana klassik məktəbinin ilk nümayəndəsidir.*

*Haydnın musiqi dilinin mənbəyi məişət janrı, rəqs və mahnı intonasiyaları olmuşdur.*

*Yozef Haydnı "Simfoniyanın atası" adlandırırlar.*

*Bəstəkar bu janrın təməlini qoymuş, onun gələcək inkişafına dəyərli töhfələr vermişdir.*

*Haydn yaradıcılığının ən dəyərli hissəsini bəstəkarın yazdığı 104 simfoniya, 100-dən artıq kvartet, klavir üçün əsərlər təşkil edir.*

*Haydnın kvartetləri, trioları, fortepiano sonataları, konsertləri XVIII-XIX əsrin instrumental musiqisinin ən gözəl nümunələrindəndir.*

*Y.Haydn özündən sonra böyük bir yaradıcılıq irsi (simfoniyalar, sonatalar, kamera ansamblları, konsertlər, operalar, oratoriyalar, mahnılar və s.) təxminən 1000 əsər miras qoyub.*

*Bəstəkarın yaradıcılıq yolu Vyana klassik məktəbinin bütün inkişaf mərhələlərini əhatə etmiş və təqribən 50 il davam etmişdir.*

*Y.Haydn irsi dünya musiqi mədəniyyətinin ən nikbin, işıqlı səhifələrindəndir.*

**Açar sözlər:** bəstəkar, yaradıcılıq, musiqi, janr, mədəniyyət

**Ключевые слова:** композитор, творчество, музыка, жанр, культура

**Key words:** composer, creation, music, genre, culture

XVIII əsr Avropa ölkələrində (İtaliya, Almaniya, Avstriya) instrumental musiqinin yeni janrlarının formalaşma prosesi baş verir. Bu proseslər "Vyana klassik məktəbi"nin nümayəndələri Haydn, Motsart və Bethoven yaradıcılığında əks olunur.

Vyana klassikləri dünya musiqi mədəniyyətinə realistik və demokratik istiqamət gətirmişdir.

Dahi Avstriya bəstəkarı Yozef Haydn dünya musiqi mədəniyyətində görkəmli yer tutur. Onun həyat və yaradıcılığı Avstriya paytaxtı Vyana ilə bağlı olub.

Bəstəkarın yaradıcılığı Avstriya xalq mahnı və rəqs musiqisinə bağlıdır.

Y.Haydnın əsərlərində mühit, xalq məişəti və təbiət təsvir olunur. Onun əsərlərdə insanın daxili aləmi, əhval-ruhiyyəsi, fikir və düşüncəsi öz əksini tapıb. Haydnın simfoniya, kvartet janrlarını yeni obrazlarla zənginləşdirmişdir. Onun yaradıcılığı dünya musiqi mədəniyyətinin inkişafı üçün zəmin olmuşdur.

Y.Haydn yaradıcılığı çoxşaxəlidir və bir çox janrları əhatə edir. Bura operalar, xor əsərləri, simfonik əsərlər, instrumental musiqinin müxtəlif janrları, o cümlədən konsertlər, kamera ansambl musiqisinin müxtəlif növləri, duet, trio, kvartetlər, kamera ansambl musiqisinin müxtəlif növləri, duet, trio, kvartetlər, kamera-vokal əsərlər, o cümlədən mahnılar, eləcə də şotland, irland və s. xalq mahnılarının səs ilə fortepiano üçün işləmələri, tamaşalara yazılmış musiqi daxildir. Lakin bəstəkarın musiqi tarixində müstəsna əhəmiyyəti məhz onun instrumental yaradıcılığı ilə bağlıdır. Məhz bu sahə Haydn sənətinin bədii dəyərini və ümumdünya miqyasında yerini müəyyən edir.

"Vyana klassik məktəbinin ən görkəmli nümayəndəsi Haydn öz yaradıcılığında Avstriya musiqi folklorunun müxtəlif elementlərindən – cənubi alman, macar, slavyan – geniş istifadə edib. Çox vaxt əsl xalq mahnılarına müraciət edərək, o eyni zamanda özünün xalqsayağı mahnı və rəqslərini yaradırdı. Haydnın bəstələdiyi bir çox melodiyalar xalq

mahnıları kimi qəbul olunub, oxunurdular. Bəzən, xalq heç bəstəkarın adını da belə bilmirdi" [1.80-81].

Y.Haydnın simfonik yaradıcılığına 104 simfoniya daxildir. Simfoniya janrı Y.Haydn yaradıcılığında böyük bir təkamül keçmişdir. Bəstəkarın erkən simfoniyaları (XVIII əsrin 60-cı illəri) o dövrün əyləncəli məişət janrları çərçivəsindən kənara çıxmırdı. 1761-ci ildə 6 saylı "Səhər", 7 saylı "Günorta", 8 saylı "Axşam və tufan" simfoniyalarını yaratmışdır.

Beşhissəli "Vida" simfoniyası (1772) bəstəkar üçün o qədər də səciyyəvi olmayan həyəcanlı, dramatik obrazlar aləmini təcəssüm etdiriməsilə seçilir.

XVIII əsrin 80-ci illərdə Haydn yaradıcılığı öz yüksək zirvəsinə çatır. Bu illərin ən yaxşı əsərləri 6 "Paris" simfoniyası (1786), "Uşaq simfoniyası"dır (1788).

Y.Haydn həmçinin müxtəlif alətlərlə orkestr üçün 35 konsert bəstələyib. Bəstəkarı həmçinin "kvartetin atası" adlandırılar. Y.Haydn kvartetin klassik dördhissəli quruluşunu təsdiq etmişdir. O, bütün ömrü boyu bu janra müraciət edərək, 100-dən artıq kvartet bəstələmiş və bunların ən yaxşı nümunələrini XVIII əsrin 80-90-cı illərində yaratmışdır.

Haydnın klavir musiqisi (sonatalar, rondo, variasiyalar) onun yaradıcılığının vacib tərkib hissəsidir.

Professor M.Dadaşova Y.Haydnın sonataları haqqında yazır: "Əsasən üçhissədən ibarət olan sonatalar ifaçıdan yüksək musiqi mədəniyyəti tələb edir. onun sonataları kamera üslubunda yazılıb, bu da musiqi dilinin detallaşdırılmasında, faktura dəqiqliyində, inkişafın topluğunda və s. özünü göstərir.

Sonata üzərində çoxillik iş prosesində o, yeni fortepiano üslubunu yaradıb, möhkəmləndirərək, hesab edirdi ki, fortepianodan daha yumşaq və melodik səs almaq mümkündür, nəinki klavesindən. Buna görə də o, aparıcı melodik səsi o biri səslərdən tam və dəqiq ayırmağa çalışırdı. Müəyyən harmonik əhəmiyyətə malik olan fiqurasiya passajları Haydnın əsərlərində müstəqil rol oynayırdı – onlar musiqiyə hərəkət gətirirdi və eyni zamanda inkişaf vasitəsi kimi istifadə edilirdi. Bəstəkar həm də qırıq, rahat arpeciolardan da geniş istifadə edirdi-onlar fortepianoda çox yaxşı səslənirdi". [3.36-37]

Y.Haydn öz sonatalırında fikirlərin dəqiqliyinə və səslənmənin təbiiliyinə çalışırdı. Parlaq və məzmunlu mövzuların istifadə olunması Haydnın əsərlərini təkraredilməz və bir-birindən fərqli etmişdi.

Klavir yaradıcılığı (sonato, rondo, variasiyaları) Haydnın yaradıcılığında əhəmiyyətli yer tutur.

Y.Haydnın klavir əsərlərinə 52 sonata, rondo və variasiyalar da daxildir.

Bəstəkarın mülayim fikirli əhval ruhiyyə daşıyan es-moll, monumental və geniş Es-dur sonataları, uşaq oyunu xatırladan D-dur sonatası və s. əsərləri konsert və tədris repertuarlarında geniş yer tutur.

Haydn 50-dən çox fortepiano, skripka, violonçel və nəfəsli alətlər üçün konsert yazmışdır.

Bir sıra kvartetlər triolar və başqa ansambllar, kamera-instrumental sahəsində, klassik irsin, bədii qiymətli hissəsidir.

Bəstəkarın irsində ən dəyərli nümunələr içərisində yaradıcılığının sön dövründə yazdığı iki oratoriya – "Dünyanın yaranması" (1798, Con Miltonun "İtirilmiş cənnət" poeması əsasında) və "İlin fəsilləri" (1801, Ceyms Tomsonun poeması əsasında) əsərlərini də qeyd etmək olar.

Y.Haydnın bəstələdiyi 24 opera içərisində opera buffa ("Aptekçi", "Balıqçı qızlar" və s.) , zingspil ("Axşam şeytan"), opera seriya ("Asis və Qalateriya") nümunələrini qeyd etmək olar.

Vyana klassik məktəbinin ilk nümayəndəsi Y.Haydnın musiqisi dünya musiqi mədəniyyətində xüsusi yer tutmuşdur.

***Ədəbiyyat***


1. Əfəndiyeva E. Musiqi tarixi (Qərbi Avropa musiqi tarixi). Bakı, 2014.
2. Həsənova Ş. Musiqi tarixindən mühazirələr. I hissə. Bakı, 2008.
3. Dadaşova M. Musiqi müəlliminin hazırlığının metodikası (dərs vəsaiti). Bakı, 2010.
4. Qasımova S. Xarici ölkələrin musiqi tarixinə aid metodik göstərişlər. Bakı, ADPU, 1985.

Rus dilində:

5. Левик В. “Музыкальная литература зарубежных стран”. Вып. II, Москва, 1979.
6. Попова Т. Зарубежная музыка XVIII и начала XIX века. Москва, 1976.
7. История жизни И.Гайдна. Записанная с его слов Альбертом Кристофом Дисом. Издотельство, Классика…, 2015.
8. Кремлев Ю. Иозеф Гайдн. Очерк жизни и творчества. Москва, 1972.
9. Новак Леопольд . Иозеф Гайдн. Москва, 1973.

Saytoqrafiya
www. konservatoriy.az.
www.musiqi-dunya.az.


## ОСНОВНЫЕ АСПЕКТЫ ТВОРЧЕСТВА ЙОЗЕФА ГАЙДНА

***Магеррамова Сяма Башир кызы***

***Резюме***


Творчество Гайдна вошло в историю мировой музыки в XVIII-XIX веках. Великий австрийский композитор Йозеф Гайдн - первый представитель венской классической школы. Художественные достижения венских классиков имеют очень высокое историческое значение в развитии мировой музыки.

Произведения Гайдна, Моцарта и Бетховена, в которых были использованы богатые художественные традиции Вены, являются ярчайшим проявлением стиля классицизма.

Йозефа Гайдна называют “отцом симфонии”.

Самую ценную часть творчества Гайдна составляют 104 симфонии, написанные композитором, более 100 квартетов и сочинений для фортепиано.


## MAIN ASPECTS OF JOSEF HAYD`S CREATIVITY

***Maharramova Sama Bashir***

***Summary***


Haydn`s work has entered the history of world music in the XVIII-XIX centuries. The great Austrian composer Josef Haydn is the first representative of the Viennese classical school. The artistic achievements of the Viennese classics have a very high historical significance in the development of world music.

The work of Haydn? Mozart and Bethoven, which benefited from the rich artistic traditions of Vienna, is the brightest manifestation of the classicist style.

Joseph Haydn is called the “father of the symphony”.

The most valuable part of Haydn`s work consists of 104 symphonies written by the composer, more than 100 quartets and works for piano.



***Rəyçi: GDU-nun “Musiqi fənləri” kafedrasının baş müəllim S.Şabanova***
***Musiqi fənləri kafedrasının 11mart 2021-ci il tarixli kafedra iclasının 09 saylı protokolu***
***Daxil olmatarixi 24 aprel 2021-ci il***